Azərbaycan.-2025.- 5 oktyabr (№ 214).- S.5.

# *Şəhid anası:* "Nigaran qalma, tez qayıdacağam deyib, Nicat könüllü cəbhəyə yollandı"




**Hər bir ömrün bir dastanı var. Kiminin dastanı uzun illərlə yazılır, kiminin dastanı isə bir neçə illik, amma dolğun bir ömürlə. Nicat Ziyafət oğlu Hüseynovun dastanı da 23 illik bir ömrə sığan, amma əsrlərə yadigar qalan qəhrəmanlıq salnaməsidir.**

AZƏRTAC xəbər verir ki, 1997-ci il iyunun 4-də Şirvan şəhərində doğulan Nicat elə uşaqlıqdan Vətən sevgisi ilə böyüyüb.

Qəhrəman övladının əziz xatirəsindən danışan şəhid anası Zümrüd Hüseynova deyir ki, evin sonbeşiyi, ailənin sevimlisi olan Nicat ürəyində böyük bir dünya daşıyırdı. "Ən çox sevdiyi oyuncaqlar silahlar idi, çünki o, bir gün Vətən torpaqlarının keşiyində dayanacağını sanki uşaq könlü ilə hiss edirdi. O, həm təhsildə, həm də sənətdə özünü sınadı, musiqi məktəbinin məzunu oldu. Amma ən böyük məktəbi Vətən oldu. 2020-ci ilin payızında bu məktəbin qapısı üzünə açıldı. Ölkənin hər bir gənci kimi Nicat da könüllü olaraq döyüşə yollandı", - deyə şəhid anası bildirir. Anasının "getmə, sən evin tək oğlusan" deyə səslənməsinə cavabı isə "Ana, nigaran qalma, tez qayıdacağam" olub.

Amma o, əslində, qayıdışın başqa cür olacağını sanki hiss etmişdi. Könüllü olaraq cəbhəyə yollananda verdiyi telefonun yaddaşında gizlədiyi sətirlər də bunu deyirdi: "Məndən xəbər olmasa, bu şəkillə məni axtararsız" ismarışı ilə sanki Nicat özü də anlayırdı ki, qayıdışı Şəhidlər xiyabanının müqəddəs sükutunda olacaq.

Onun döyüş yolu Füzuli istiqamətindən başlayıb. Göstərdiyi igidliklə seçilib, əsgər yoldaşlarına ruh, düşmənə isə qorxu verib. Oktyabrın 6-da Nicat şəhidlik zirvəsinə ucalıb O, qələbəni görməsə də, qələbənin yolunu açanlardan biri olub. Qanıyla, canıyla bizlərə azadlıq, Zəfər, qürur bəxş edib.

Bu gün Şirvan Şəhidlər xiyabanında uyuyan Nicatın adı sadəcə bir məzarda deyil, bütün şəhidlərimizin adı kimi millətin qəlbində yaşayır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təltif olunduğu orden və medallar onun qəhrəmanlığının dövlət səviyyəsində təsdiqidir. Amma ən böyük mükafat Nicat üçün Vətənin azad torpaqları, millətin alnına yazılan qalib xalq adıdır.

Şəhid anası Zümrüd Hüseynova deyir ki, övlad itkisi ağır olsa da, onların uca məqamı bizim təsəllimizdir.

"Nicat özü qələbəni görməsə də, amma bizlərə qələbə yaşatdı. Bəli, övlad itkisi ağrıdı, amma o ağrının içində qürur, o qürurun içində ölməzlik var. Nicatın ömrü qısa oldu, amma dastanı əbədidir. Onun adı gələcək nəsillərə vətənpərvərlik dərsi, qəhrəmanlıq örnəyi kimi çatacaq. Çünki şəhidlər ölmür, Vətən yaşadıqca onların nəfəsi torpağın üstündə, ruhu isə xalqın qəlbində yaşayır", - deyə şəhid anası bildirib.

Qeyd edək ki, Nicat Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.